facebook
QARABAĞ AZƏRBAYCANDIR! SƏS
Ses Media Holding

# Ermənistan qəsdən abidələrimizi vandalizmə məruz qoyub

**“44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın olunub. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edilib. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsi sona çatıb. Münaqişə tarixdə qalıb”.**





“İki sahil” xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında “Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması” mövzusunda çıxışı zamanı deyib.

Dövlət başçısı qeyd edib ki, işğal dövründə Azərbaycanın bütün şəhər və kəndləri yerlə-yeksan edilib: “Xarici mütəxəssislər Ağdam şəhərini “Qafqazın Hirosiması” adlandırırlar. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, təhqir və qarət edib. 60-dan artıq məscid Ermənistan tərəfindən dağıdılıb. Məscidlər inək və donuzların saxlanılması yerlərinə çevrilib.



Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” konsepsiyalarından istifadə olunacaq. Mən dost ölkələrdən olan şirkətləri işğaldan azad olunub, dörd dəfə Lüksemburqdan böyük olan ərazidə irimiqyaslı yenidənqurma işlərinə dəvət edirəm”.